Alakbarli, S. (2023). Müasir Azərbaycan nəsrində dilin psixopoetik funksiyası və üslub müxtəlifliyi. *Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 12*(4), 1602-1610.

*Uluslararası **T**ürkçe **E**debiyat **K**ültür **E**ğitim Dergisi Sayı: 12/4 2023 s. 1602-1610, TÜRKİYE*

***Araştırma Makalesi***

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ DİLİN PSİXOPOETİK FUNKSİYASI VƏ ÜSLUB MÜXTƏLİFLİYİ

**Suqra ALAKBARLİ***

***Geliş Tarihi: 18 Eylül 2023*** ***Kabul Tarihi: 28 Ekim 2023***

**Öz**

Bu makale psikopoetik kavramını açıklığa kavuşturacaktır. Pek çok ilim adamının bu terimle ilgili yaklaşımları üzerinde durulacaktır. Yerli ve yabancı bilim adamlarının bu konudaki görüşleri karşılaştırılacaktır. Aynı zamanda sanatsal eserler de bu açıdan analize dâhil edilecektir.

Filoloji bilimlerinin bir alt dalı olan psikopoetiğin amacı, içeride ve derinde olup bitenlerin sözel anlatımını incelemektir. Psikolojik başlangıçları ve düşüncenin söze dönüşmesindeki rolünü belirlemektir. Edebiyatta psikolojik içeriğin sanatsal biçimle bütünleşmesinde dilin işlevi çok önemlidir. Dilin psikopoetik yönü, kelimelerin arkasında açıkça ifade edilmeyen fikirleri, duyguları, ifadeleri anlamayı amaçlanmaktadır.

Bu bağlamda psikopoetik analiz için Elchin'in "Canavarlar" öyküsü ve Kamal Abdulla'nın "Unutulacak Kimse Yok" romanı kullanıldı. Bahsedilen eserler psiko-şiirsel analiz için oldukça zengin bir malzeme sunmaktadır. Bu eserlerin psiko-şiirsel analizi makalenin ana konusu olarak belirlenmiştir.

**Anahtar Sözcükler:** Psikopoetik, psikopoetik analiz, psikolojizm, hikâye, roman.

## THE PSYCHOPOETIC FUNCTION OF LANGUAGE IN MODERN AZERBAIJAN PROSE AND VARIETY OF STYLES

**Abstract**

This article will clarify the concept of psychopoetics. The approaches of a number of scholars regarding this term will be emphasized. The opinions of local and foreign scientists on this issue will be compared. At the same time, artistic works will be involved in the analysis from this point of view.

The goal of psychopoetic, as a subfield of philological sciences, is to study the verbalization of what is happening inside and deep. It is to determine the psychological beginnings and its role in the transformation of thought into words. In literature, the function of language is very important in the unity of psychological content with artistic form. The psychopoetic aspect of language aims to understand the thoughts, feelings and expressions behind the words that are not clearly expressed.

In this regard, Elchin's story "Monsters" and Kamal Abdulla's novel "No one to forget" were used for psychosomatic analysis. The mentioned works provide very rich material for psychopoetic analysis. The psychopoetic analysis of these works is defined as the main issue of the article.

**Keywords:** Psychopolitics, psychosomatic analysis, psychologism, story, novel.

* Dr.; Azerbaycan Diller Universiteti, suqra.alakbarli@mail.ru.

## Giriş

Psixopoetika gənc termindir və ona  münasibət birmənalı deyil. Leontyevə (1997) görə, sırf şeirlə bağlı olub poetik düşüncənin dildə ifadə olunma prosesinin psixolinqvistik dərkinin ixtisaslaşmış sahəsidir (s. 120). Etkində (1999) görə isə bütün ədəbi növlərdə insanın daxili məninin bədii sözə-nitqə çevrilməsi prosesini öyrənənən filoloji yanaşmadır (s. 45).

Ədəbiyyat və psixologiya arasındakı münasibətlərin tədqiqatçısı Etkind "Psixopoetika: daxili insan və zahiri nitq" adlı əsərində XVIII-XIX əsr Rus ədəbiyyatı nümunələrinə müraciət edərək "daxili insan" anlayışının ədəbiyyatda yaranması və inkişaf xəttini izləyir. Tədqiqatında "daxili insan" anlayışının necə və nə zaman ortaya çıxdığını öyrənmək niyyəti âlimi Alman romantiklərindən Jan Pol Rixterin ruhun ölümsüzlüyü ilə bağlı traktatına aparıb çıxarır. Bu sözün ilk dəfə terminoloji məzmunda Rixter tərəfindən işləndiyi ilə razılaşır, lakin ədəbiyyatın, eləcə də fəlsəfənin bütün dönəmlərdə insanın daxili aləmi ilə bağlı təcrübəsi olduğunu da qeyd edir.  Belə qənaətə gəlir ki, "daxili aləm" əvvəlcə alman romantiklərində, sonra rus romantizmində möhkəmləndikcə, bu dərin və gözəgörünməz aləmi ifadə edə bilmək üçün dilin bütün potensialı səfərbər olunur. Daxildə və dərində baş verənlərin verballaşması baş tutur ki, filologiya elmlərinin bir alt sahəsi kimi psixopoetikanın məqsədi məhz bu vəziyyəti öyrənməkdir. Fikrin sözə çevrilməsində psixoloji başlanğıcları və onun rolunu təyin etməkdir. Məsələn, romantiklərin ədəbiyyata gətirdiyi bu "daxili aləm"in sözlərə çevrilməsi prosesini Etkind üsulu ilə Hüseyn Cavid (2005) yaradıcılığına tətbiq edəndə "Gecə" adlı şeir tamamilə başqa cür oxunur: "Dərin-dərin uçurumlar, vərəmli fırtınalar/ Bütün-bütün sıqıb əzməkdə ruhumu bu gecə. Səninlə, ah, sənin yadi-həsrətinlə yanar, Yanar, səni anarım, dilbərim! Fəqət səncə, Bu bir həyati-müxəyyəl, həzin bir əyləncə..." (s. 103). Bu şeirdə gecə şairin daxili aləminin verballaşmasına keçid edən sözdür, onun iç dünyasındakı qaranlıq təlatümü ifadə edir. Həqiqətən daxili aləmin ifadə oluna bilməzliyi ilə söz arasındakı ziddiyyəti romantiklər gözəl həll edə bilmişdilər. Ədəbiyyat dilin estetik zənginliyi üçün bu gün də onlara çox şey borcludur.

## 1. Psixopoetika Anlayışına Bir Nəzər

Psixopoetika ilə bağlı bir neçə məqaləsinə rast gəldiyimiz psixoloq Misgər Məmmədov (2021) qeyd edir:

> Poetik məhsulu şüurun prizmasından keçirən oxucu iki prinsiplə üzləşir: a) insan təbiətinin aksiomatik müddəası, b) dil materialının qanunauyğunluqları – insan təfəkkürünün azadlığı və real aləmin təəssüratları nəticəsində formalaşmış dilin tipoloji sistemləri, qrammatikanın və ədəbiyyat nəzəriyyəsinin sərt qanunları, birincisi çırpınaraq sahillərə sığmayan, sərt qayaları hirslə  döyəcləyən azad düşüncə, ikincisi isə seli çayın məcrasına salıb ona, coşğun meyllərə laqeyd düzüm verən sahildir – dilin qanunauyğunluqlarıdır.

Bununla da, tədqiqatçı psixika və dilin poetik müstəvidəki bütün kəsişmələrini psixopoetikanın predmeti kimi görür. Başqa bir yazısında isə Kamal Abdulla yaradıcılığında yetərincə aktiv olan "sirr" konseptini və sözünü psixopoetik obraz-formul kimi təqdim edir (Məmmədov, 2021).

Bu yanaşmaları ümumiləşdirərək və metodoloji baza kimi onlara əsaslanaraq, qeyd etmək istərdim ki, ədəbiyyatda psixoloji məzmunun bədii forma ilə vəhdətində dilin funksiyası olduqca önəmlidir. Bu zaman dil nominativ, kommunikativ, eləcə də poetik funksiyalarla məhdudlaşa bilmir, informasiyanın psixi dərinliyini qorumaq üçün dil özünü psixoloq kimi aparır.  Daxildən gələn psixi enerjinin mətndəki yerinə, roluna, vəzifəsinə və mövqeyinə o qərar

verir. Az öncə adını çəkdiyimiz Etkind (1999) öz tədqiqatını L.S.Vıqotskinin məşhur sözləri ilə bitirir: "Fikir sözlə ifadə olunmur, sözlə tamamlanır" (s. 414). Bu cümlə psixoloji məzmunun verballaşmasının üsul və texnikasını, miqyas və dərəcəsini, imkanlarını və imkansızlıqlarını görməyimiz üçün bizə metodoloji istiqamət verir. Deməli, dilin psixopoetik aspekti dedikdə sözlərin arxasında dayanan, açıq şəkildə ifadə olunmayan fikirlərin, hisslərin, ifadələrin və s. qavranılması nəzərdə tutulur (Kulibina, 2001, s. 95).

## 2. Elçinin "Canavarlar" Hekayəsinin Psixopoetik Təhlili

Psixopoetika anlayışına aydınlıq gətirdikdən sonra bədii əsərlərin təhlilinə keçid etməyi lazım bilirik. Müasir Azərbaycan nəsrində psixopoetika baxımından təhlilə əlverişli şərait yaradan əsərlər sırasında Elçinin "Canavarlar" (2009) hekayəsinin adını qeyd edə bilərik. Bu əsər psixopoetik təhlil üçün olduqca əlverişlidir. "Külli-məxluqatın ən zəifi insandır" (İlyas Əfəndiyev) epiqrafı ilə başlayan hekayədə insan personajına demək olar ki, rast gəlinmir. Adından göründüyü kimi, hekayə canavarlar haqqındadır. Mətnin poetik qatı şərti-metaforik üslubda formalaşır:

> Boz canavar artıq neçə müddət idi ki, ac və susuz ailəsi - qancığı və iki küçüyü ilə qurumuş ağacların, kol-kosun arasıyla Şərqə tərəf gedirdi. Onlar rastlarına çıxan qurumuş çay çuxurlarının dibində qalmış və iylənmiş lili yalaya-yalaya susuzluqlarını az da olsa, yatırırdılar, amma ət yox idi və aclıq onları məhv edirdi (Elçin, 2009, s. 26).

Bilirik ki, Elçin nəsri üçün lirizm və psixologizm xarakterikdir. Onun nəsri lirik tonlama, ahəngdarlığın arxasındakı psixoloji dərinliyi gizlətməklə müşahidə olunur, təhkiyə isə dilin rəvanlığı və səlisliyi əsasında qurulur. Elçinin lirik-psixoloji üslubunun ən xarakterik xüsusiyyəti fərdilik amilinin qabarıq olmasındadır. Dərin mənəvi aləmin verballaşmasına can atan yazıçı lirizmi bir vasitə olaraq görür. "Canavarlar" hekayəsində lirizm digər hekayələrinə nisbətdə daha azdır, o öz yerini şərti-metaforik dolğunluğa verir. Belə ki, canavarların sərgüzəşti bu hekayədə insanı və onun taleyini şərti-metaforik şəkildə ifadə edir, üslub müəyyən qədər ekspressionistləşir. M. Baxtin (2005) ekspressionizm cərəyanını əsas götürərək yazırdı: "Qəhrəmanın yaradılmasında özünüdərkin dominantı ekspressionistlər tərəfindən düzgün tapılmışdır, lakin, onlar bu özünüdərki öz-özünə və bədii cəhətdən inandırıcı şəkildə açılmağa məcbur etməyi bacarmırlar. Nəticədə qəhrəman üzərində bilərəkdən və kobud şəkildə edilmiş eksperiment, ya da simvolik tamaşa alınır" (s. 87). Elçin öz hekayəsində özünüdərk dominantını məhz ekpressionistcəsinə tapır, həllini isə realistcəsinə edir. O, şərti-metaforik layı yaradan bütün vasitələri yerində və məqamında istifadə edir, nəticədə hekayənin sonuna doğru həqiqət özünü bu poetik örtüyün altından göstərməyə başlayır. "Bu hekayənin özəlliyi orasındadır ki, onu narahat edən, sadəcə, canavarlar deyil. Onu sosial-siyasi problem düşündürür. Buradakı ekoloji qat isə daha çox rəmzi anlam daşıyır. Canavarlar, səhra, quraqlıq, bitib-tükənmək bilməyən yol sətiraltı mənaya malik rəmzlərdir" (Sabutay, 2009, s. 12).

Ümumiyyətlə, psixopoetik rakursdan baxanda, realist, romantik, ekspressionist, ekzistensial və s. kimi üslublar təkcə fəlsəfi-estetik konsepsiyalarına görə fərqlənmirlər, həm də bu konsepsiyaların ifadə olunduğu dil müxtəlifliyinə görə fərqlənirlər. Romantik ədəbiyyatın romantik qəhrəmanları adətən bütün tərəddüdlü yanları, ziddiyyətli tərəfləri və qərarsız mövqeləri ilə birlikdə içlərindəki ikili – yaxşı və pis arasındakı mübarizəni dilə gətirirlər, bu da öz növbəsində mətnin dil qatında təzadların-antitezaların aktivliyinə şərait yaradır. İnsanın iç dünyasına kənar bir obyekt kimi baxan realistlər isə insanın xarakterini, hiss və ehtiraslarını,

ağlındakıları, rəftarını, davranış tərzini, əxlaqını və s. müşahidəçi dəqiqliyi ilə elə qələmə alırlar ki, müqabilində dil özü də konkretləşir, sadələşir. Dilin poetik çoxçalarlılığı və metaforik çoxqatlılığı zəifləyir. Ekspressionist üslubda isə əksinə, şərti ifadələrin dominantlığı artır və s.

"Canavarlar" hekayəsində şərti olan nə varsa hamısının funkiyası var. "Elçin "Canavarlar"da etnogenetik problemləri, mifologiyanı, folkloru həm bədii şəkildə, həm də filosof, sosioloq kimi təqdim edir" (Tağısoy, 2009, s. 7). Mətnin səthindəki poetik məzmun alt qatdakı psixoloji məzmunu aşkarlamağa xidmət edir. M.Baxtinə görə, şərti söz həmişə ikisəsli sözdür, yalnız o şeylər şərti ola bilər ki, onlar nə vaxtsa qeyri-şərti olmuşdur (Baxtin, 2005, s.90). Bu ilkin, birbaşa və qeyri-şərti məna indi onu daxildən ələ alan və şərtiləşdirən yeni məqsədlərə xidmət edir. Canavarı şərti söz kimi götürsək, məhz onun şərti və qeyri-şərti məzmunu arasındakı dialoq mətndəki psixo-sosial insan faciəsini anlamağa kömək edəcək: "Bəxtlərinə dəhşətli quraqlıq düşmüş, Bozla, qancıqla birlikdə yaşamaq üçün Şərqə üz tutmuş küçüklər, görünür, qancığın doğub Bozla birlikdə böyüdərək, gələcək ailələrə ötürdükləri sonuncu nəsil idi. Çünki Boz da, qancıq da təbiətin onlara verdiyi canavar ömrünün çoxunu artıq yaşamışdılar" (Elçin, 2009, s. 27).

Hekayənin pritça dilində canavar qanunları – canavarların dünyası – canavarların psixologiyası mətnləşir. Hadisələrin ardıcıllığını canavar ailəsinin başına gələnlər müəyyən edir. Alt qatında isə insan xisləti fəlsəfi-psixoloji dərinliyi və sosioloji məzmunu ilə mətnləşir. Psixoloji situasiya və konflikt də bu zaman özünü büruzə verir. Eqoizm altruizmə qarşı uduzur, fədakarlıq insanı gələcəyə - doğru gələcəyə aparan yol kimi təqdim olunur. Canavarlar Şərqə, rütubət qoxusuna doğru hərəkət edirlər. Bu da Şərqin insana dair humanist ideyalarını mətnin sətiraltısına gətirir:

> Canavarlar sadəcə səhra, quraqlıq, ölüm yox, həm də öz daxillərindəki yırtıcı eqoizmlə mübarizə aparırlar. Bu mübarizədə sevgi qalib gəlir. Ata və ana canavarın fədakarlığı hesabına bala canavarlar həyat uğrunda mübarizədən qalib çıxmaq imkanı qazanırlar. Amma bu imkan hələ gerçəkləşməyib. Bir sözlə, hekayə gərgin daxili dramatizm və psixologizmlə şərtlənir (Sabutay, 2009, s. 12).

Psixopoetik aspektdən yanaşdıqda, hekayənin bütün linqvistik qatına bədbin tonun hakim olduğunu görürük, mətn olduqca kədərli, depressivdir. Hətta hekayənin sonunda canavar balalarının Şərqə çatmağı da şübhə altında qalır. Ata və ana özlərini bu iki bala uğrunda fəda etdilər, qardaşları isə mənəvi quraqlıq səhrası böyüdükcə daha böyük imtahan gözləyir. Mətnin içindəki dozanqurdu səhnəsi bizə deyir ki, rütubətə gec çatacaqları təqdirdə bu iki qardaşdan birinin digərinin canavarı olması ehtimalı yüksəkdir. Hekayə oxucunu ana və ata rollarındakı liderlik, avtoritetlik və fədakarlıq anlayışlarına yönəldir. İfrat fədakarlığın səbəb ola biləcəyi psixoloji problemlər barədə düşündürür. Şərq və Qərb dəyərlər sistemini dolayı yollarla qarşı-qarşıya gətirir. Beləcə, mətnin psixopoetik qatını aralayanda şərti informasiyanın arxasındakı gerçək informasiyanı görmüş oluruq.

Ümumiyyətlə, daxili aləmin ifadəsi kimi psixopoetikanın predmetinə teatral monoloq, səs axınına (daxili aləm) qarşı sözün (zahiri nitq) gücsüzlüyünün hiss olunduğu məqamlar, daxili aləmin maskalar altında ifadəsi kimi məsələlərin mətndə aşkarlanması daxildir. Əsər müəllifi öz personajlarını danışdıra da bilər, haqqında danışa da bilər. Birinci halda personajların psixoloji kimliyi onların nitqində, ikinci halda isə müəllif nitqində özünü büruzə verir. Məsələn, romantik üslubda subyektivlik qabarıq olur, müəllif şəxsi simpatiyaları və ya

antipatiyaları ilə qəhrəmanları kontrol altında saxlayır. Bu baxımdan deyə bilərik ki, dilin psixopoetik funksiyası üslubla birbaşa bağlıdır, daha doğrusu özünü üslubda realizə edə bilir.

### 3. Kamal Abdullanın "Unutmağa Kimsə Yox" Romanının Psixopoetik Təhlili

> Üslubu monumental, geniş, kateqoriya hesab edən Kamal Abdulla yazır: Üslub dedikdə mütləq nəsrimizin ritmi haqqında da danışmaq gərəkdir. Nəsrimizin ritmi özünü ən müxtəlif dil və üslub qatlarında, səviyyələrdə büruzə verir. Lakin bütün qat və səviyyələrdə ritm ilk növbədə hər hansı bir əsərin daxili sahmanı ilə bağlıdır, onunla müəyyənləşir. Daxili sahman nəsr əsərinin xırda epizoddan tutmuş böyük parçalara, fəsillərə qədər bütövlüyünü, təbiiliyini təmin etmişdir. Onun müəllif hissələrinin qarşılıqlı əlaqəsini şərtləndirir (Abdulla, 1985, s. 124).

Elə Kamal Abdullanın öz romanına, "Unutmağa kimsə yox.." əsərinə nəzər salanda nəsr ritminin çox fərqli formalarda qarşımıza çıxdığını görürük. Adı çəkilən romanın xarakterik xüsusiyyəti prozaikliklə poetikliyin təmasıdır. Ümumiyyətlə, nəsr mətninin prozaik dilində şeirə xas metaforik dolğunluq və ritmiklik müşahidə olunarsa, bu zaman lirizm aktivləşir və mətnin dərin qatlarından gələn psixologizmi ifadə edən vasitəyə çevrilə bilir, nəticədə lirik-psixoloji stilizasiya yaranır. "Unutmağa kimsə yox" romanında lirik xətt mətnə iki şəkildə daxil olur: aşkar və gizli. Aşkar odur ki, "Çiçəkli yazı"nın özü kimi mətndə şeir parçaları var.

Lirizmin mətndəki latent, amma yetərincə funksional iştirakı isə birinci növbədə "Unutmağa kimsə yox" romanının öz başlanğıcını müəllifin "Unutmağa kimsə yox" adlı şeirindən götürməsi ilə bağlıdır. Sanki, bu roman lirik şeirin epikləşməsi hadisəsi təəssüratını yaradır.

"Unutmağa kimsə yox" romanında prozaik-epik xətlə poetik lirizm paraleldir, iki ayrı və kəsişən xətt kimi roman boyu bir-birini izləyir. Bu da əsərdə özünü ikinci məzmun kimi göstərir. Roman öz psixopoetik libasını məhz bu ikinci məzmunun mahiyyətini anladığımız zaman soyunur. Bunun üçün lirik-psixoloji ovqatın epikliyi sıxışdırdığı məqamlara xüsusi diqqət yetirmək lazım gəlir. Bəzən epik mətndə lirik məqamlar daha üstün mövqeyə sahib olur. Romanın lirik-emosional dominantları həm də sənətkarın varlığının necə üslublaşdığını bizə göstərir.

"Unutmağa kimsə yox" romanının kompozisiyasında mürəkkəblik, fraqmentarlıq, zaman müxtəlifliyi, hadisələrin anaxronik düzümü müşahidə olunur. Mətnin struktrundakı bu dağınıqlıq məhz psixopoetik prinsip əsasında toparlanır, səliqəyə salınır. Ayrı-ayrı hadisələr arasında əlaqə fərqli şəkildə qurulur. Romanın strukturunun ayrı-ayrı elementlərini birləşdirən epik mexanizm olmadığına və ya zəiflədiyinə görə, birləşdirici funksiyanı hadisələr arasındakı münasibətlər deyil, motivlər yerinə yetirir. Fikir versək görərik ki, simvollarla və metaforik obrazlarla ifadə olunan motivlər mətnəqədərki təcrübələri ilə birlikdə bu prosesi gerçəkləşdirirlər, oxucunu eyhamla keçmişin mətnlərinə yönəldirlər. Ayrı-ayrı motivlər birləşir, motiv karkası hörülür, bu karkas altında müəllifin təəssüratları, assosiasiyaları, poetik obrazları birləşir. Kamal Abdullanın romanında bu karkası ifadə edən deyim "hadisələrin üfüqü"dür.

Ümumiyyətlə, lirik süjeti epik və dramatik süjetdən fərqləndirən əsas meyar dəqiq cizgiləri olan fabulanın yoxluğudur, daha doğrusu zaman və məkan konturları baxımından aydın fabulanın olmamasıdır. Fabulanın yoxluğu məhz lirik kontekstdə psixoloji hərəkətliliklə

kompensasiya olunur (Levitan, 1990, s. 146). Poetik məkanı quran duyğulu əhval-ruhiyyə, emosional ab-hava kimi komponentlər fraqmentarlığa səbəb olur, sanki, mətnin epik məkanını dağıdır. Romanda epik təhkiyə xüsusiyyətləri ilə poeziyanın xüsusiyyətlərinin bir-birilə qarışması yeni mətn sistemini yaradır ki, bu poetik roman adlandırıla bilər. Romandakı birləşdiricilik personajların daxili dünyalarındakı psixoloji ovqat, situasiya və hal-vəziyyətlərin oxşarlığı, bənzərliyi əsasında qurulur. Romanda əbədi (arxetipik) motivlərin və obrazların geniş yer alması təsadüfi səciyyə daşımır. Lirizm bu romanda psixopoetik funksiya daşıyır. Həm Kamal Abdullanın şair kimliyinin üslublaşmasının göstəricisi kimi yadda qalır, həm də roman iştirakçılarının sevgi əhvalatlarını emosional şəkildə ifadə edir.

Biri (müəllif dünyagörüşü) mətndəki lirizmin qaynağı olub, yaradıcı enerjinin tipini müəyyən edir, digəri (romana səpələnmiş sevgi əhvalatları) isə bu enerjini sözə çevirmək üçün vasitə rolunu oynayır. Ümumiyyətlə bu tip, lirik və estetik romanların müəllifi adi məişət yazıçısı olmurlar. Varlıq aləminin alışılmış sistemini dağıtmaq, mənəvi nizamın aliliyinə diqqət yetirmək onlar üçün əsas prioritetdir. Hər bir detal, mətni təşkil edən hər bir komponent özünəxas funksiya ilə çıxış edir. “Unutmağa kimsə yox” romanı təəssüratların çoxluğu ilə seçilir, amma gerçəkliyi sırf şeirdə olduğu kimi ifrat şəkildə metaforikləşdirmir. Personajların düşüncələrinə, hisslərinə, təcrübələrinə, xatirələrinə diqqət yetirir, sanki şüurun romanlaşması baş tutur: “Su, Yazı, Dağ, Mağara, Ağac, Köpək və Qadın. Onların hamı bir-birinin içində, bir-birinin cəmi kimi hərdən mənə Möhtəşəm ahəngi xatırladır, hərdən də yox. Möhtəşəm ahəng!... Onu axtarmaq əbəs imiş. Özünü sənin yuxuna, xəyalına sala bilər – bu qədər!” (Abdulla, 2020, s. 514).

Mətnin roman içində romanlar silsiləsi şəklində qurulması poetik şüurun sərhədsizliyi, bədii təxəyyülün genişliyi ilə bağlıdır, bu dərinliyi ifadə edə bilmək üçün müəllif dilin nəhəng potensialını mətnə cəlb edir. Təxəyyül və dil birləşərək konkret fabulaya söykənən süjeti praktik olaraq ləğv edir. O, lirik mənin genişmiqyaslı hərəkət trayektoriyasında dolaşır, tarixin, mədəniyyətin, dünənin məlum motivlərindən dəstək alır. Mətndə obraz-motivlər arasında assosiativ əlaqələr qurulur, dildə ritmiklik və ifadəlilik artır. Ədəbi meyarların - epiklik və lirikliyin yaxınlaşması baş tutur. Rüstəm Kamalın (2011) bu roman haqqında “Unutmağa kimsə yox” əsəri yuxu kimi mətndir, sanki nə əvvəli, nə axırı var. İstənilən personaj və hadisə, istənilən mətn romanın mövcud toxumasına asanlıqla daxil ola bilər, ordan çıxa bilər, başqası ilə əvəzlənə bilər” (s. 116) fikri romandakı lirik və psixoloji dərinliyi, həyatın əbədi və universal dəyərləri ehtiva edən məzmununu yerində və dəqiq izah edir.

Lirizm bu cür romanlarda dilin psixopoetik funksiyasının təzahürü kimi görünür, mətnin bütöv kompozisiyasından tutmuş, üslubuna, rənginə və ruhuna qədər nüfuz edir. L.S.Vıqotksiyə görə, “Bütün - fonetik, morfoloji, leksik, semantik, hətta ritmik, metrik və musiqili – qarammatik və formal kateqoriyaların arxasında mütləq psixoloji məzmun dayanır” (Vıqotskiy, 1998, s.334). Lirizmin dərinliyi isə müəllifin fəlsəfi-estetik dünyagörüşü ilə ölçülür, çünki bu romanda sevgi mövzusu adi məişət səviyyəsində qalmır, həyatın əbədi problemi, kainatın başlanğıc və sonunu müəyyən edən dərin insani dəyər kimi təqdim olunur.

**4. Nəticə**

Bu məqalədə psixopoetika anlayışına aydınlıq gətirildi. Bu terminlə bağlı bir çox alimlərin yanaşmalarına nəzər salındı. Mövzu ilə bağlı olaraq yerli və xarici alimlərin fikirləri müqayisə edildi. Eyni zamanda, Kamal Abdullanın və Elçinin əsərləri də bu prizmadan təhlilə cəlb olundu. Filologiya elmlərinin bir alt qolu olan psixopoetikanın məqsədi daxildə və dərində baş verənlərin verballaşmasını öyrənməkdir. Psixoloji başlanğıcları və onun fikrin sözə çevrilməsindəki rolunu müəyyən etməkdir. Ədəbiyyatda psixoloji məzmunun bədii forma ilə inteqrasiyasında dilin funksiyası çox mühümdür. Dilin psixopoetik aspekti sözlərin arxasında aydın ifadə olunmayan fikirləri, duyğuları və ifadələri başa düşməyi hədəfləyir. Bu kontekstdə psixopoetik təhlil üçün Elçinin “Canavarlar” hekayəsindən və Kamal Abdullanın “Unutmağa kimsə yoxdur” romanından istifadə edilmişdir. Adı çəkilən əsərlər psixopoetik təhlil üçün çox zəngin material verir. Bu əsərlərin psixo-poetik təhlili məqalənin əsas mövzusu kimi müəyyən edilmişdir.

Adları çəkilən əsərlərdə psixologizmi mətnlərdə, məhz üslubun içində axtarmaq istiqaməti bizi psixostilistikaya gətirib çıxarır. Bu baxımdan, A. Morye “Üslubların psixologiyası” əsərində üslubları şəxsiyyətin tiplərinə görə təsnif edir, ümumbəşəri xüsusiyyətlərə görə səkkiz tip (zəif, gücsüz, balanslı, müsbət, güclü, qarışıq, təmiz, qüsurlu) müəyyən edir və bu tipləri üslubların içində axtarır. Anatol Fransı “attik üslub” una görə balanslaşdırmış xarakter kimi görür, Stendal, Jorj Sand və Balzakı qüsurlu (xətalı) xarakterə, Floberi isə akademik üslubuna və realist prozaik üslublarına müvafiq olaraq balanslı və müsbət xarakterlər kateqoriyasına aid edir.

Riçard Müller-Freynfels isə sənətkarları iki qrupa ayırır: təcəssüm edən şair və ifadə edən şair. Birinci üçün yaradıcılıq materialını yaşanmışlıq təşkil edir, ikinci tip üçün daxili subyektivizm həddən artıq qabarıqdır. Müller-Freynfels xasiyyətinə görə sənətkarları statiklərə və dinamiklərə bölüb, eyni zamanda “intellekt” meyarına görə xəlqi, elmi, sadəlövh, refleksiv sənətkarları bir-birindən fərqləndirirdi. Başqa bir təsnifatında isə “sosial plan”ı əsas götürür: nifrət, qəzəb və kin-küdurəti satira şəklində ifadə edən "aqressiv" sənətkarları (F. Rable, J. B. Molyer, A. Frans, H. İbsen, B. Şou); insana və təbiətə rəğbət bəsləyən, mərhəmət hissi ilə yaşayan “simpatik” sənətkarları (Ç. Dikkens, F. Dostoyevski, X. Hauptman); şüurlu şəkildə özünü təsdiq edən "şən" sənətkarları (qədim yunan şairi Pindar, barokko və rokoko şairləri); dünya kədəri düşüncəsinə malik “depressiv” sənətkarları (F. Şatobrian, N. Lenau, C. Bayron, H. Heyne) ayırırdı.

Bütün bu mülahizələri ortaq tədqiqat müstəvisinə gətirən psixolinqvist Valeriy Pavloviç Belyaninə (2006) görə, söhbət mətnin emosional-semantik oriyentasiyasından, mətnin üslubu vasitəsilə müəllif şəxsiyyətinin üslubunu anlamağa cəhddən gedir (s. 50). Alim çox maraqlı bir alternativlər cədvəli təqdim edir, mətni müxtəlif növlərə ayırır və bu mətn növlərini səciyyələndirən tipləri sadalayır: işıqlı mətn – paranoyal tip; qaranlıq mətn – epileptoid tip; şən mətn – hipmaniakal tip; kədərli mətn – depressiv tip; gözəl mətn – histeroid tip; qəliz mətn – şizoid tip (Belyanin, 2006, s. 54).

V. P. Belyaninin gözü ilə baxanda, “Canavarlar” üslubca kədərli / qaranlıq mətn, “Unutmağa kimsə yox” romanı isə işıqlı / gözəl mətn effekti oyadır. Bu mətnləri ərsəyə gətirən psixoloji enerjinin tipini isə təkcə müəllifin deyil, mətni anlayan oxucunun qavrayışı da təyin edir və bu prosesin anlaşılması interdisiplinar yanaşma tələb edir.

Bədii mətnə, onun müəllifinə və personajlar heyətinə yanaşmada psixoloji, psixoanalitik və psixiatrik prinsiplərin kompleks şəkildə tətbiqi əsas götürülür. Psixolinqvistik təcrübə də vacibdir. Biz bu məqalədə psixoloji ədəbiyyatşünaslığın yeni və maraqlı istiqamətlərindən olan psixoestetika və psixostilistika məsələsinə toxunmağa çalışdıq. Bugün humanitar düşüncədə antipsixologizm psixologizmi müəyyən mənada sıxışdırsa da, tam şəkildə dəf edə bilmir. Bütün zamanlarda insanın yaradıcı enerjinin qaynağı olması danılmaz həqiqətdir. Sadəcə olaraq, bugün subyektiv olan mətnin alt qatlarına doğru hərəkətdədir, onun aşkarlanmasında dilin psixoestetik və psixostilistik funksiyalarından bəhrələnmək lazımdır və bunu doğru istiqamət hesab edirik.

**Ədəbiyyat Siyahısı**

Abdulla, K. (1985). *Müəllif-əsər-oxucu.* Bakı: Yazıçı Nəşriyyatı.

Abdulla, K. (2020). *Seçilmiş əsərləri I.* Bakı: Mütərcim Nəşriyyatı.

Alyılmaz, S. ve Alyılmaz, C. (2018). Ağız Bilimi çalışmalarının Türkçe öğretimi açısından önemi. *Türk Dünyası Dil ve Edebiyat Dergisi*, (45), 7-38.

Baxtin, M.M. (2005). *Dostoyevski poetikasının problemləri.* Bakı: Şərq-Qərb Nəşriyyatı.

Belyanin, V.P. (2006). *Psixologiçeskoe literaturovedeniye.* Moskva: Qenezis.

Cavid, H. (2005). *Əsərləri I.* Bakı: Lider Nəşriyyatı.

Elçin. (2009). Canavarlar. *525-ci qəzet,* 26-29.

Etkind, E.Q. (1999). *"Vnutrenniy çelovek i vneşnaya reç. Oçerki psixopoetiki ruskoy literaturı XVIII – XIX vv.* Moskva.

Kamal, R. (2011). Yazıçı kosmoqoniyası: paralel dünyaların ahəngi. *525-ci qəzet,* 15-17.

Kulibina, N.V. (2001). *Linqvodidaktika.* Moskva: МАКС Пресс.

Leontyev, A.A. (1997). *Ocnovı psixolinqvistiki.* Moskva.

Levitan, L.S., Çileviç, L.M. (1990). *Osnovı izuçeniya syujeta*. Riqa.

Məmmədov, M. (2021). "Mənim Füzulim"dəki Göylə Yer harmoniyası. https://sim-sim.az/mnim-fuzulimdki-goyl-yer-harmoniyasi (e.t.20 aprel 2023).

Məmmədov, M. (2021). Nar çiçəkləri və ya həvəsin psixologiyası. https://525.az/news/169921-nar-cicekleri-meqale (e.t.19 aprel 2023).

Sabutay. (2009). Yaşamaq fədakarlıqdır. *Mədəniyyət,* 12.

Tağısoy, N. (2009). Canavarlığın anatomiyası. Elçinin "Canavarlar" hekayəsinin təsirindən yaranan düşüncələr. *525-ci qəzet,* 7.

Vıqotskiy, L.S. (1998). *Psixologiya iskustva.* Rostov: Feniks.

**Extended Abstract**

This article clarified the concept of psychopoetics. The approaches of many scholars regarding this term have been reviewed. The opinions of local and foreign scientists were compared on the subject. At the same time, the works of Kamal Abdulla and Elchin were also analyzed from this perspective. The goal of psychopoetics, which is a branch of philological sciences, is to study the verbalization of what is happening inside and deep. It is to identify the psychological beginnings and its role in the transformation of thought into words. The function of language is very important in the integration of psychological content with artistic form in literature. The psychopoetic aspect of language aims to understand the thoughts, feelings and expressions behind the words that are not clearly expressed. In this context, Elchi's story "Monsters" and Kamal Abdulla's novel "There is no one to forget" were used for psychopoetic analysis. The mentioned works provide very rich material for psychopoetic analysis. The psycho-poetic analysis of these works is defined as the main topic of the article.

The direction of searching for psychologism in the texts, that is, in the style of the works "No One to Forget" and "Monsters" leads us to psycho-stylistics. In the regard, A. Morye in his work "Psychology of Styles" classifies styles according to the types of personality, defines eight types (weak, powerless, balanced, positive, strong, mixed, pure, defective) according to universal characteristics, and looks for these types in the styles. Anatole sees France as a balanced character according to the "Attic style", Stendhal, George Sand, and Balzac are categorized as flawed (faulty) characters, and Flaubert as balanced and positive characters according to their academic style and realistic prose style.

Richard Müller-Freinfels divides artists into two groups: poets who embody and poets who express. For the first type, the creative material is experience, for the second type, internal subjectivism is too prominent. Müller-Freinfels divided artists into static and dynamic artists according to their character and at the same time distinguished folk, scientific, naive, and reflexive artists according to the "intellect" criterion. In another classification, he takes the "social plan" as the basis: "aggressive" artists who express hatred, anger, and malice in the form of satire (F. Rable, J.B. Moliere, A. France, H. Ibsen, B. Shaw); "sympathetic" artists who sympathize with people and nature, live with compassion (C. Dickens, F. Dostoyevsky, H. Hauptman); self-consciously self-affirming "cheerful" artists (the ancient Greek poet Pindar, baroque and rococo poets); distinguished "depressive" artists (F. Chateaubriand, N. Lenau, J. Byron, H. Heyne) with the thought of world sadness.

According to the psycholinguist Valery Pavlovich Belyanin, who brought all these considerations to a common research level, it is about the emotional-semantic orientation of the text, an attempt to understand the style of the author's personality through the style of the text (Belyanin, 2006, p.50). The scientist presents a very interesting table of alternatives, divides the text into different types, and lists the types that characterize these types of text: illuminated text - paranoia type; dark text – epileptoid type; cheerful text - hypmaniacal type; sad text – depressive type; fine text – hysteroid type; Galiz text - schizoid type (Belyanin, 2006, p.54).

When viewed through the eyes of V.P. Belyani, "Monsters" evokes a sad/dark text in style, and the novel "No One to Forget..." evokes a light/beautiful text effect. The type of psychological energy that creates these texts is determined not only by the author's perception, but also by the reader who understands the text, and understanding this process requires an interdisciplinary approach.

The approach to the literary text, its author, and the cast of characters is based on the complex application of psychological, psychoanalytic, and psychiatric principles. Psycholinguistic expertise is also important. In this article, we tried to touch on the issue of psychoesthetics and psychostylistics, which are new and interesting directions of psychological literary studies. Today, anti-psychologism in humanitarian thought suppresses psychologism in a certain sense, but it cannot completely overcome it. It is an undeniable fact that at all times man is a source of creative energy. Simply put, today the subjective is moving towards the lower layers of the text, It is necessary to benefit from the psychoesthetic and psychostylistic functions of the language in its detection, and we consider this to be the right direction